# <u>XİN:</u> İranın Ermənistandakı səfirinin Xankəndi Zirvə görüşünün yekun sənədi ilə bağlı iddiaları qəbuledilməzdir

**İran İslam Respublikasının Ermənistan Respublikasındakı səfiri Mehdi Sobhaninin İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Xankəndi şəhərində keçirilmiş 17-ci Zirvə görüşünün yekun sənədi ilə bağlı iddiaları qəbuledilməzdir.**

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə İranın Ermənistandakı səfirinin İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndi Zirvə görüşünün yekun sənədi ilə bağlı iddialarını şərh edərkən deyib.

O, İran İslam Respublikasının səfirinin diqqətinə çatdırıb ki, Zirvə görüşünün nəticələrinin əks edildiyi Xankəndi Kommünikesi ECO üzvü olan dövlətlərlə əvvəlcədən razılaşdırıldığı kimi, əvvəlki Zirvə görüşlərinin təcrübəsinə uyğun olaraq, üzv dövlətlərlə razılaşdırılmasına ehtiyac yaranmadan sammitin sədrinin xülasəsi formatında tərtib edilərək təşkilatın rəsmi internet səhifəsində dərc olunub.

Bu halda İran səfirinin guya Xankəndi Kommünikesinin qəbul olunması və İran tərəfinin ona qeyd-şərt qoyması barədə iddiaları real vəziyyəti əks etdirmir. Diplomatik praktikada qeyd-şərt yalnız danışıqlar nəticəsində qəbul edilmiş qərarlara münasibətdə verilə bilər.

"Həqiqət budur ki, İran İslam Respublikası da daxil olmaqla, ECO-nun bütün üzvləri İslam Əməkdaşlıq Təşkilatının da üzvləridir və İran da daxil olmaqla, həmin dövlətlərin hamısı iyunun 21-22-də İstanbulda keçirilmiş ECO Nazirlər Şurasının 51-ci sessiyasının yekununda danışıqlar nəticəsində qəbul edilən "Hazırkı Ermənistan ərazilərindən zorla və sistematik şəkildə didərgin salınmış azərbaycanlıların qayıdış hüququ" adlı qətnamədə və həmin sessiyanın yekun siyasi sənədi olan İstanbul Bəyannaməsində Qərbi Azərbaycan İcmasının öz yurdlarına ləyaqətli qayıdış hüququna dəstəyini ifadə edib, habelə Ermənistan tərəfindən sözügedən icmanın hüquqlarının inkar olunmasını qınayıb", - deyə A.Hacızadə bildirib.

XİN sözçüsü qeyd edib ki, Xankəndi Kommünikesi isə ECO-nun məhz bu konsensusla qəbul olunmuş Bəyannaməsinə istinadı ehtiva edir.

"Bununla əlaqədar, İran səfirinin Ermənistanın "Armenpress" agentliyinə verdiyi müsahibədə səsləndirdiyi fikirlər siyasi manipulyasiya və riyakarlıqdan başqa bir şey deyil", - deyə o əlavə edib.

Azərbaycan.-2025.- 10 iyul (№ 139).- S.3.